## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

UOT 37

***Hürü Qüdrət qızı Kərimova***
*Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasının müəllimi*

# TƏRBİYƏYƏ TƏSİR EDƏN SOSİAL-PSİXOLOJİ AMİLLƏR

***Хури Гудрет гызы Керимова***
*преподаватель кафедры Общей педагогики*
*Гянджинского Государственного Университета*

# СОЦИО-ПСИХОЛОГИЧЕСКИЕ ФАКТОРЫ ВЛИЯЮЩИЕ НА ВОСПИТАНИЕ

***Huri Qudrat Kərimova***
*lecturer of the department of General pedagogy at Ganja State University*

# SOCIO-PSYCHOLOGICAL FACTORS INFLUENCING TO UPBRINGING

**Xülasə.** Məqalədə ailələrin tamlığının pozulma halları tədqiq edilmiş, həmçinin yarımçıq ailələrin yaranma səbəbləri üzə çıxarılmışdır. Daha sonra bu amillərin uşaqların təlim fəaliyyətinə əks təsirinin səviyyəsi öyrənilmiş, onların aradan qaldırılması yolları müəyyən edilmişdir. Bu məqalə uşaqların ailə tərbiyəsində, məktəbdə müasir təlim və təhsil praktikasında əhəmiyyətlidir.
***Açar sözlər:*** *sosial-psixoloji amil, natamam ailələr, çətin tərbiyə olunan uşaqlar, müəllim-şagird münasibətləri, demoqrafik amillər*

**Резюме.** В статье исследованы факторы, нарушающие целостность семьи, а также выявлены причины появления неполных семей. Далее изучены уровень влияния этих факторов на учебную деятельность учащихся, определены пути их устранения. Данная статья имеет значение в практике современного преподавания и образования в школьном и семейном воспитании.
***Ключевые слова:*** *социо-психологический фактор, неполные семьи, трудные дети, отношения учителя и ученика, демографические факторы*

**Summary.** In article have been revealed the factors, disturbed the completeness of the modern families, also causes of formation of incomplete families. Learned the levels of influence of these factors to the education activities of pupils and defined the abilities of their elimination. This article is very useful for teachers- tutors, chives of schools, also for fusiliers.
***Key words:*** *socio-psychological factor, single families, difficult bringing up children, attitudes between teachers and pupils, demographical features*

İstənilən bir cəmiyyətdə baş verən dəyişikliklər insanların psixikasına, şəxsiyyətin təşəkkülünə, qarşılıqlı münasibətlərə, eləcə də tərbiyə sisteminə əsaslı təsir göstərir**.** Bununla yanaşı hər bir subyektin özündə dəyişiklik baş verir, emosional-iradi, motivasiya-tələbat sahəsi dəyişir. Təbii ki, həm subyektin özündə gedən dəyişiklik, həm cəmiyyətdə gedən proseslər, eləcə də onların qarşılıqlı təsiri kifayət qədər mürəkkəb psixoloji sistemə malikdir. Professor H.Ə. Əlizadənin yazdığı kimi, "Şəxsiyyətin təşəkkül istiqaməti və səviyyəsi yalnız xarici təsirlərin xarakterindən deyil, həm də insanın özünü təkmilləşdirmək cəhdindən asılıdır" (2).

Bu gün cəmiyyətdə gedən proseslər, yeniləşmə, onun pozitiv və ya neqativ olmasından asılı olmayaraq yaratdığı gərginlik gənc nəslin bu şəraitə adaptasiya ilə bağlıdır. Yeniləşmə yalnız texniki, həyatı məsələlərdə deyil, həm də təhsilin struktur və məzmununda öz əksini tapmalıdır. Çünki yeni cəmiyyət yeni keyfiyyətlə-

rin daşıyıcısı olan insanların tərbiyəsi və şəxsiyyətinin formalaşmasından keçir.

Təbii ki, cəmiyyətdə yeniləşmə qaçılmazdır. Lakin daha yaxşı olar ki, yeniləşmə şəraitində insan qan və çirkabla yox, məhəbbətlə qardaşlıq və dostluqla əhatə olunsun. Cəmiyyət elə olsun ki, hər kəsə yaradıcılıq, təşəbbüskarlıq imkanı verilsin, hər kəs özünün subyektiv "Mən"inə tabe olsun, başqasının iradəsinə yox. İnsanlar cəmiyyəti dağıtmağa yox, qurmağa, çalışsınlar.

Yeniləşmə şəraitində bəzi insanların fəallığı artir, onlar reallığa asanlıqla uyğunlaşır, digərləri isə sanki "donub qalır", öz fikirləri içərisində itib-batirlar.

Uşaq və yeniyetmələrin yeni şəraitə adaptasiyasını öyrənmək üçün 10-18 yaşlı küçə uşaqları, onların düşüncə və davranış tərzi araşdırılmışdır. İnternat məktəbinə yerləşdirilən uşaqlar yeni şəraitə tez və asanlıqla adaptasiya olunurlar: yaxşı davranır,təlim müvəffəqiyyəti qazanırlar. Lakin onların bütün bu uğurları oğurlamağın yeni üsullarını tapmaq və ondan istifadə etməyə yönəlir. Deməli uşaq vaxtı çətin olur. Bu mənada F.M. Dostoyevskinin sözləri yerinə düşür: "Xosbəxt uşaqlığı olmayan kəs, mənəviyyatlı ola bilməz". Nikolo Makkiavelli isə deyib: "Mən kasıb ailədə doğulduğumdan həyatı əyləncə kimi deyil, məhrumiyyətlər kimi dərk etdim".

Yeniləşmə şəraitində insanların həyatına, düşüncə tərzinə iqtisadi dəyişiklik daha çox təsir göstərir. İqtisadi dəyişiklik insanlara dolayısıyla yox, bir başa təsir göstərir. İnsanların mübarizəsi, idealı, dini inamı, ümid və təhlükəsizliyi həm də həyatı təminatdan asılıdır.

Bir çox psixoloqlar insanın təbiətinin dəyişilməz olduğunu sübuta çalışırlar. Göstərirlər ki, son otuz min il ərzində insanın təbiəti ya az dəyişib, ya da ümumiyyətlə dəyişməyib. Lakin insanın davranışı faktiki olaraq dəyişir. Bir ictimai quruluşda bir qrup impulslar üstünlük təşkil edir.

Göstərirlər ki, feodalizm dövründə adamlar "insan təbiətini" quldurluqda, qarətdə, zorakılıqda təsdiq etməyə çalışırdılarsa, kapitalizmdə istismarda görürdülər. Deməli, mahiyyət qalır, davranış isə dəyişir.

Cəmiyyətdəki sosial-psixoloji proseslər hər bir fərdə təsir göstərir və hər bir kəs öz psixoloji xüsusiyyətlərinə uyğun olaraq adekvat reaksiya verir, münasibət bildirir. Uyğun reaksiya və münasibətlər insanların çoxunda həm də oxşar cəhətlərin olduğunu göstərir. Yəni sosial mühit həm fərdi, həm də ümumi oxşar psixoloji vəziyyət yaradır. Cəmiyyətdəki gərginlik artdıqca insanların psixoloji gərginliyi yüksəlir. Eləcə də əksinə, sabitlik gərginliyi azaldır. Bununla belə, insanlar stress, affekt vəziyyətlərini yüngülləşdirmək üçün müəyyən müdafiə mexanizmləri tapır və istifadə edirlər.

Biz yuxarıda deyilənləri daha aydın. Səlis, dəqiq həm də obrazlı şəkildə çatdırmaq üçün bədii ədəbiyyatdakı nümunələrdən istifadə etməyi daha məqsədəuyğun hesab etdik. Çünki insan şəxsiyyətinin öyrənilməsinin iki yolu var: ədəbi-bədii və psixoloji.

Onlardan hansının daha vacib olduğunu isə söyləmək çətindir, çünki onlardan hər birinin öz üstün və zəif cəhətləri vardır. Hesab edirik ki, onlar bir-birini tamamladıqda daha yaxşı səmərə verir.

Bunun üçün biz II dünya müharibəsi zamanı Leninqradın mühasirəsinə həsr olunmuş bir əsərdən – belarus yazıçısı Aleksandr Mixayloviç Adamoviç və rus yazıçısı Daniel Aleksandroviç Qraninin "Mühasirə" povestindən istifadə etməyi məsləhət bildik. Mühasirə şəraitində həyat və məişət qayğıları: bir vedrə su, istilik, çörək növbəsi – bütün bunlar son dərəcə zəifləmiş insanlar üçün böyük problem imiş və fövqəladə güc tələb edirmiş.

Gözümüz qarşısında ondan da az güc tələb etməyən mənəvi dözüm canlanırdı. Xeyirxahlıq, cəsarət, məhəbbət, qəddarlıq tamam fərqli ölçüləri ilə meydana çıxırdı. Ər və arvadın, ana və övladın, qohumların, qonşuların münasibəti gərgin sınaq dövrü yaşamışdır: "Mən qardaşım arvadı, dörd yaşlı oğlu və gəlinimizin anası ilə birlikdə qalırdım. Gəlinimiz bizim, hələ üstəlik də bacısının da çörək talonunu mənə verdi ki, çörək alım. Mən mağazaya getdim. Çörəyi aldım. Amma bu kiçik bir çörək və əlavə olunmuş xırda bir parça idi. Əlavə çörək parçası təxminən 50 qram olardı. Çörəyi əlimə götürmüşdüm ki, 16-17 yaşlarında arıq, ac bir oğlan onu əlimdən qapdı və tələm-tələsik yeməyə başladı. Mən dəhşət içərisində qışqırdım: "Oy! Mən indi nə edim? Bütün ailə ac qaldı". Qadınlardan biri tez qapını bağladı ki, oğlan qaça bilməsin və başladılar oğlanı döyməyə: "Alçaq, sən nə edir-

sən? Ailəni ac qoyursan". Amma oğlan yalnız çörəyi qoparıb ağzına təpirdi. Çörəyin qalanını alıb mənə verdilər. Dayanıb fikirləşirəm: İndi evə necə gedim? Oğlana baxıram, yazığım gəlir." Gör necə acdır ki,?".

Mariya Vasilyevna Maşkova danısır:" Bizim qonşuluğumuzda İqor adında qəşəng, ağıllı bir uşaq da yaşayırdı. Anası onu hədsiz çox istəyirdi. Mən isə uşaqlarıma onu kimi diqqət göstərə bilmirdim. Bir dəfə İqor çörək talonlarını itirdi. Aprel ayı idi. Yeliseyev maqazininin qarşısından keçirdim. Birdən gözüm arıq, skletə oxşayan bir uşağa sataşdı. Aman allah, bu ki, İqordur! Sənə nə olub? –deyə soruşuram".

Sonra Mariya Maşkova uşaq və ananın taleyindən danışır. Aclığın yaratdığı psixi gərginliyə hər adam dözə bilmir. Aclıq insanın beynini, ağlını, hisslərini"yeyir". İqor çörək talonunu itirir. Bundan dəhşətə gələn ana oğlunu evdən qovur. Bir müddət ac-acına dolaşan uşaq ölür.

Müharibə qurtarır, hər şey yerini tutur: çörək var, aclıq yoxdur, psixika normal halına qayıdıb. Yalnız indi sanki ana ayılır. Oğlu yoxdur ölüb! Ananın qəzəbi onu öldürüb. Ana bu vəziyyətə dözə bilmir, özünə qəsd edir. Psixikanın pozulması, insanlıq hissinin itməsi faciə ilə başa çatır.

Leninqrad mühasirəsi ən ağır, dözülməz şəraitdə belə insanlığın, mənəviyyatın sınmağını, əksinə özünün ən yüksək səviyyəyə çıxa bildiyini də sübut etdi. Ən ağır vaxtda insanlar bir-birlərinə dayaq olur, nizam-intizamı gözləyir, qoruyurdular. Marina Tkaçeva danışır ki, anası hər gün onlardan tələb edirdi ki, dişlərini təmizləsinlər: "Diş pastası olmadıqda kömürlə dişlərimizi yuyurduq". Marina gilin ailəsi özləri ac qaldıqda belə pişiklərini qoruyub, sağ saxlayıblar. Onda Marinanın üç yaşı olub.

Leninqradlılar necə sağ qalmağın yox, necə yaşamağın üsullarını fikirləşib tapırdılar. Hətta yaşamağın ən qəribə üsulunu kəşf edirdilər. Ac olanda çarpayıda hərəkətsiz uzanıb yatırdılar ki, az enerji itirsinlər.

Mühasirədə aclığa, dəhşətə, ölümə baxmayaraq ən böyük problem, uşaqlar onların sağ qalması idi. Onların qayğısına həm şəhər təşkilatları, həm də ayrı-ayrı insanlar qalırdı. Hətta belə ağır şəraitdə uşaqların qayğısına qalınması müqəddəs borc hesab olurdu.

Beləliklə, biz insanın təbiəti, onun sosial amillərindən asılılığı üzərində dayandıq. Təbii ki, ekstremal şəraitdə insanın mahiyyəti daha bariz şəkildə üzə çıxır. Bunları isə biz bədii əsərdən verdiyimiz parçalarla təqdim etməyə çalışdıq.

**Problemin aktuallığı.** Şəxsiyyətin formalaşması prosesini şərtləndirən ənənəvi amillərlə yanaşı demoqrafik amillərin ayırd edilməsi, onların pedaqoji baxımdan sistemli şəkildə öyrənilməsi çağdaş tərbiyə nəzəriyyəsi və təcrübəsinin aktual problemi kimi özünü göstərir. Müasir dövrdə ictimai həyatın demokratikləşdirilməsi və humanistləşdirilməsi şəraitində bu məsələlərin öyrənilməsinin əhəmiyyəti xüsusilə artır.

**Problemin yeniliyi** ondan ibarətdir ki, təlim prosesində, dərsdənkənar vaxtlarda və ailə şəraitində neqativ demoqrafik təsirlərin islah olunub aradan qaldırılması yolları müəyyən olunur.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın metodikasından, onun məzmunundan, alınan elmi nəticələrdən məktəbdə tərbiyə işlərinin təşkili prosesində, uyğun metodik vəsaitlərinin hazırlanmasında istifadə etmək olar.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2010
2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: Maarif, 1996.
3. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı: Səda, 1998, 342 s.
4. Игошев К.Е., Минковский Г.М. Семья, дети, школа. М.: Юридическая литература, 1989, 445 с.

**E-mail:** *huru-kerimova@mail.ru*

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **Ş.T. Tağıyev**
*ped.ü.fəls.dok., dos.* **G.R. Məmmədova**

**Redaksiyaya daxil olub:**11.03.2021